# Gənclərin formalaşmasında mühüm layihə

## Qəbələ məktəbliləri Qubada hərarətlə qarşılanıblar

***Noyabrın 16-da Prezident İlham Əliyevin tapşırığına əsasən "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində şimal bölgəsinə ekskursiyaya gələn Qəbələ məktəbliləri Qubada hərarətlə qarşılanıblar.***



Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında ümummilli liderin abidəsini ziyarət etdikdən sonra məktəblilərə rayon haqqında ətraflı məlumat verilib.

Bildirilib ki, ölkəmizin digər bölgələrində olduğu kimi, Quba-Qusar-Xaçmaz bölgəsində də son illər aqrar sahənin, emal müəssisələrinin, xüsusən də turizm sənayesinin inkişafı istiqamətində böyük işlər görülüb. Bu bölgə həm də tarixi məkanları ilə tanınır. Aksiya iştirakçıları dörd gün ərzində Quba Soyqırımı Memorial Kompleksində erməni vəhşiliyinin əyani şahidi olub, yəhudilərin sıx məskunlaşdığı Qırmızı qəsəbəyə, xalçaçılıq emalatxanasına, Cümə məscidinə, Tağlı körpüyə, Xınalıq yolundakı şəlaləyə, qolf meydançasına səfər ediblər.

Məktəblilərin diqqətinə çatdırıblar ki, Azərbaycanın şimal bölgəsi iqtisadiyyatı ilə bərabər, turizmin inkişafı üçün də cəlbedici məkandır. Son illərdə bu bölgədə turizm infrastrukturunun yaradılması istiqamətində mühüm addımlar atılıb. Qusar rayonunda "Şahdağ" Turizm Mərkəzinə gələn turistlərin sayı ilbəil artır. Bu mərkəz təbiətin bütün fəsillərində öz gözəlliyi ilə fərqlənir.

Heydər Əliyev Mərkəzinə gələn məktəblilər burada ulu öndərin Azərbaycanda hakimiyyətdə olduğu illərdə ölkəmizin müxtəlif bölgələrinə səfərlərini, o cümlədən Quba rayon ictimaiyyəti ilə görüşlərini əks etdirən fotoguşələrlə tanış olublar.

**"Qəbələ"**

## Qəbələ məktəbliləri Qusar rayonunda olmuşlar

***Prezident İlham Əliyevin tapşırığına əsasən "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Qəbələ rayonunu təmsil edən məktəblilərindən ibarət qrup noyabrın 17-də Azərbaycanın şimal qapısı olan Qusar rayonunda olmuşlar. Məktəblilərimiz Qusar şəhərinin girişindəki bayraq meydanında qarşılanmışlar.***

Rayon icra hakimiyyətinin, mədəniyyət və turizm, təhsil şöbələrinin nümayəndələri şagirdlərə Qusar rayonu haqqında ətraflı məlumat vermişlər. Bildirilmişdir ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər Qusarın da simasını tamamilə dəyişib. Rayonda tikinti-quruculuq, abadlıq işləri intensiv həyata keçirilir, təhsil, səhiyyə, mədəniyyət sahələrində nəzərəçarpacaq irəliləyiş əldə olunmuşdur. Bu irəliləyişi təmin edən əsas amil Prezident İlham Əliyevin Qusara, onun tərəqqisinə, insanlarının rifahına qayğısıdır. Bir neçə dəfə Qusarda səfərdə olan dövlətimizin başçısı hər dəfə də neçə-neçə obyektin istifadəyə verilməsində, yeni tikililərin təməlqoyma mərasimlərində iştirak etmişdir. "Şahdağ" Turizm Mərkəzi ilə tanışlıq zamanı şagirdlərin diqqətinə çatdırılmışdır ki, turizm mərkəzi dünyadakı bu tipli komplekslərdən nadirliyi və



universallığı ilə fərqlənir. Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə Şahdağ Milli Parkının ərazisində yerləşən kompleksin təməli 2009-cu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulmuşdur. Bu layihənin reallaşdırılması Azərbaycanda dağ-xizək və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açmışdır. Azərbaycanda sürətlə inkişaf edən turizm sektoruna böyük töhfə olan "Şahdağ" Turizm Mərkəzində inşa edilən otellər bu istirahət məkanına marağı daha da artırır.

Turizm mərkəzi ilə tanışlıq zamanı məktəblilər kompleksdə təqdim olunan xidmətlərdən pulsuz istifadə ediblər.

Günün ikinci yarısında məktəblilər rayonun Həzrə kəndində "Şeyx Cüneyd" türbəsini ziyarət etmiş, şəhərdəki Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin irsini və fəaliyyətini əks etdirən fotoşəkillərə baxmışlar.

Daha sonra şagirdlər Qusar Tarix-Diyarşünaslıq Muzeyi, olimpiya idman kompleksi və rəsm qalereyası ilə yaxından tanış olmuşlar.

**«Qəbələ»**

## "Ölkəmizi tanıyaq" devizi altında şimal bölgəsinə səfər edən məktəblilər xoş təəssüratlarla Qəbələ rayonuna geri dönmüşlər

***Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən "Ölkəmizi tanıyaq" devizi ilə şimal bölgəsinə səfər edən Qəbələ məktəblilərinin bir qrupunun noyabrın 18-də Quba rayonu ilə tanışlığı davam etmişdir.***



Məktəblilər Quba Cümə məscidində, Quba Soyqırımı Memorial Kompleksində, Quba Xalçaçılıq Emalatxanasında, tağlı körpüdə olmuş, şəhərə gəzintiyə çıxmışlar.

Quba Soyqırımı Memorial Kompleksində olarkən məktəblilərə bildirilmişdir ki, erməni vəhşiləri 1918-ci ilin mart-aprel aylarında təkcə Qubada 10 mindən artıq günahsız soydaşlarımızı qətlə yetirmişlər.

Qəbələ məktəbliləri həmin gün Quba rayonunda dağ yəhudilərinin kompakt şəkildə yaşadığı Qırmızı qəsəbədə olmuşlar. Bu qəsəbədə yəhudilərlə birlikdə azərbaycanlılar, ləzgilər və digər xalqların nümayəndələri uzun müddətdir ki, bir-birinin adət və ənənələrinə, mədəniyyətinə, dilinə, dininə qarşılıqlı hörmət şəraitində yaşayırlar. Qırmızı qəsəbə də Quba rayonunun digər yaşayış məntəqələri kimi yüksək səviyyədə inkişaf etmişdir.

Nahardan sonra məktəblilər Qubanın Xınalıq kəndi yolundakı ecazkar şəlaləyə, "Rixos" Quba mehmanxana kompleksinə, Qolf meydançasına tamaşa etmişlər.

Şam yeməyindən sonra məktəblilər arasında "Nə? Harada? Nə zaman?" intellektual oyun yarışması keçirilmişdir. 9 rayondan olan məktəblilər arasında keçirilən bilik yarışmasında Qəbələ məktəbliləri yüksək hazırlıq səviyyəsi nümayiş etdirərək 2-ci və 4-cü yerləri tutmuş, sertifikat və kubokla mükafatlandırılmışlar.

Öz növbəsində Qəbələ rayonunu təmsil edən "Qədim Qəbələ" və "Müasir Qəbələ" komandaları tərəfindən qalib gələn digər komandalara xatirə hədiyyələri təqdim olunmuşdur.

Qeyd etmək lazımdır ki, 17 noyabr Milli Dirçəliş Günü münasibətilə Qəbələ məktəbliləri "Cənnət bağı" istirahət mərkəzində maraqlı tədbir keçirmişlər. Tədbirdə çıxışlar dinlənilmiş, məktəblilərin və onların müşayət edən şəxslərin ifasında Azərbaycanın Dövlət Himni səsləndirilmişdir.

Qəbələ məktəblilərinin Xaçmaz rayonuna səfəri də yaddaqalan olmuşdur. Noyabrın 19-da Xaçmaz şəhərində təntənə ilə qarşılanan məktəblilərimiz ilk öncə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Tur aksiya iştirakçılarının nəzərinə çatdırılıb ki, Xaçmaz rayonu geniş turizm imkanlarına malik rayonlardandır. Buranı parklar və muzeylər şəhəri adlandırırlar. Məktəblilər Heydər Əliyev mərkəzi ilə tanışlıqdan sonra Şəxsiyyətlər Muzeyinə gəliblər. Bu muzeydə Azərbaycanın görkəmli şair və yazıçılarının, mədəniyyət və incəsənət xadimlərinin büstü qoyulmuşdur. Ekskursiya iştirakçılarına açıq səma altında yaradılan bu muzey haqqında geniş məlumat verilmişdir.



Rayon tarix-diyarşünaslıq muzeyinə, xalça muzeyinə, rəsm qalereyasına tamaşa etdikdən sonra Qəbələ məktəbliləri bayraq meydanına gəliblər.

Bayraq meydanı ilə ətraflı tanışlıqdan sonra məktəblilər "Çənlibel" parkına gəzintiyə çıxmışlar. Tur aksiya çərçivəsində məktəblilər İDEA İctimai Birliyinin təşəbbüsü ilə keçirilən yaşıllaşdırma aksiyasında iştirak etmiş, onlara rəhbərlik edən müəllimlərlə birlikdə 300-dən çox ağac əkmişlər.

Qəbələ məktəblilərinin ölkəmizin şimal bölgəsinə tanışlıq səfəri çox səmərəli keçmişdir. Məktəblilər 4 gün ərzində vətənimizin bu bölgəsi haqqında nəzəri biliklərini əyani şəkildə zənginləşdiriblər. Məktəblilərimiz həmişə olduğu kimi bu səfərdə də öz nümunəvi davranışları və tur-aksiyada qarşıya qoyulmuş məqsədə çatmaq səyləri ilə fərqləniblər. Buna görə də Qəbələ məktəbliləri qrupu Quba "Cənnət bağı" istirahət kompleksi rəhbərliyinin «Təşəkkürnamə»sinə layiq görülmüşdür. Qəbələ Rayon İcra Hakimiyyətinə və rayon Təhsil şöbəsinə ünvanlanmış "Təşəkkürnamə"də otel rəhbərliyi Qəbələ məktəbliləri qrupunun müəllim və şagird heyətinin özünüaparma və intellekt səviyyəsindən razı qaldığını bildirir. Müəllim heyətinin ciddiliyi, nizam-intizamı, şagirdlər üzərində nəzarətinin səviyyəsini təqdirəlayiq sayır. Komandanın tərkibinin düzgün seçiminə görə rayon icra hakimiyyətinə və təhsil şöbəsinə minnətdarlıqlarını ifadə edir.

Sonda tur-aksiya iştirakçıları Quba-Qusar-Xaçmaz bölgəsindən ayrılaraq xoş təəssüratlarla Qəbələ rayonuna geri dönmüşlər.

**Qüdrət SƏMƏDOV,**
**«Qəbələ»**